# Yeni qanun milli mətbuatımızın keyfiyyətcə dəyişməsinə xidmət edəcək

**_Prezident İlham Əliyevin təsdiq etdiyi "Media haqqında Azərbaycan Respublikasının Qanunu" bugünlərdə kütləvi informasiya vasitələrində yayımlanıb. 9 fəsil, 78 maddədən ibarət olan yeni qanun medianın bir sıra mühüm sahələrində fəaliyyəti, hüquq və vəzifələri tənzimləyən mükəmməl bir sənəd kimi ortaya qoyulub._**



Həmin sahələrdən biri də ictimai nəzarətdir. Bu nəzarətin formalaşmasında medianın danılmaz rolu var. Prezident İlham Əliyevin yanvarın 12-də yerli televiziya kanallarına verdiyi müsahibədə bu baxımdan irəli gələn bir sıra vacib məqamlara toxunulub. Dövlət başçısı ictimai nəzarətdə mediaya böyük önəm verib: "İctimai nəzarətin hansısa institusional formatı da gərək işlənilsin. Sizin, media nümayəndələrinin bu sahədə çox böyük rolunuz var. Deyə bilərəm ki, mən bəzən xoşagəlməz hallar haqqında sizdən öyrənirəm, sizdən bu xəbəri tuturam və dərhal reaksiya verilir. Deyə bilərəm ki, bir çox hallarda mediada olan məlumatlar təsdiqlənir. Elə məlumatlar var ki, onlar qərəzli xarakter daşıyır. Amma məlumatların mütləq əksəriyyəti təsdiqlənir və dərhal ölçü götürülür. Ona görə dövlət məmurları bilməlidirlər, onların işinə təkcə Prezident Administrasiyası yox, həm ictimaiyyət, həm də media nümayəndələri nəzarət edirlər".

Cənab İlham Əliyevin jurnalistlərin əməyinə verdiyi yüksək qiymət böyük etimadın göstəricisi olmaqla yanaşı, media işçilərinin öz peşəkar missiyalarını həyata keçirməkdə məsuliyyətlərini artırır. Uzun müddətdən bəri müzakirə edilən və nəhayət, Prezident fərmanı ilə təsdiq olunan "Media haqqında Azərbaycan Respublikasının Qanunu" bu aspektdən əsas kompas rolunu oynayacaq. Bundan sonrakı mərhələdə qanunun icrası həvalə olunan Medianın İnkişafı Agentliyinin (MEDİA) üzərinə mühüm işlər düşür.

Qanunla MEDİA-ya müəyyən səlahiyyətlər verildi, üzərinə bir sıra öhdəliklər qoyuldu. O cümlədən media subyektlərinin reyestrə daxil edilməsi ilə bağlı vəzifələrin icrası həvalə olundu. Nizamnaməyə əlavələrin edilməsi də bununla bağlıdır. Əsas məqsədi media subyektlərinin iqtisadi müstəqilliyinin təmin olunması və rəqabət qabiliyyətliliyinin artırılması olan qanun media sahəsində sistemli, aydın və dəqiq yanaşmanın formalaşmasını hədəfləyir.

Yeni qanuna əsasən, jurnalistlər və media subyektləri arasındakı əmək münasibətləri nizama salınmalı, əmək qanunvericiliyinin müddəalarına uyğunlaşdırılmalıdır. Bu, özündə tərəflər arasındakı düzgün münasibətlərin qurulmasını və əmək haqqının məbləği ilə bağlı bir sıra məsələlərin həllini ehtiva edir. Elə jurnalistlərə güzəştli şərtlərlə ipoteka krediti verilməsinə "yaşıl işıq" yandırmaq və sair kimi mütərəqqi addımlar ataraq reallaşdırmaq imkanı da yaradılır. Prezidentin imzaladığı fərmana əsasən, artıq jurnalistlər də güzəştli kateqoriyaya daxil edildilər. Fərmana əsasən, gənc ailənin üzvü olan, azı 5 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər, eləcə də, gənc ailənin üzvü olmayan ən azı 15 il jurnalist işləyən və Media Reyestrinə daxil edilmiş şəxslər güzəştli ipoteka krediti ala biləcəklər.

Qanun layihəsinin ötən ildən media subyektləri, mətbuat üzrə ekspertlər, həmçinin də beynəlxalq təşkilatların təmsilçiləri ilə geniş müzakirələri aparılıb. Müzakirələrdə səslənən bir çox nüanslar, diqqətəlayiq fikirlər, təkliflər qanun layihəsinə daxil edilib. Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılovun müsahibələri, Əməkdar jurnalistlər Həsən Həsənovun, Bəxtiyar Sadıqovun, İlqar Rüstəmovun, Tahir Rüstəmovun Elşad Paşasoyun və digərlərinin mətbuatda bu barədə yazdıqları qanun layihəsinin bu və digər aspektlərinin dəqiqləşdirilməsi və təfsiri baxımından əhəmiyyətli olub. Təklif və təşəbbüslərin əksəriyyəti nəzərə alınıb və buna görə də biz qanunun məhz pozitiv notlar üzərində hazırlandığını qeyd edə bilərik.

Yeri gəlmişkən, mətbuata bu və ya digər dərəcədə yaxın olan ziyalıların qanunla bağlı bəzi fikirlərini xatırlayaq. Milli Məclisin deputatı, Əməkdar jurnalist Aqil Abbas dövlət başçısının təsdiqlədiyi qanunu yüksək dəyərləndirərək deyib: "Normal qanundur, ölkəmizdə azad sözə kifayət qədər meydan verilib, nə qədər qəzet və sayt var. Amma, nəhayət, bu sahədə bir düzən yaranacaq. Əsas məsələ qanunun icrasını həyata keçirməkdir. Biz neçə il idi ki, vahid vəsiqə sisteminə keçməyə çalışırdıq. Bu, vacib məsələdir. Nəhayət, yalançı jurnalistlərin əl-ayağı yığılar. Yoxsa hərə əlinə bir telefon götürüb, "jurnalistəm" deyir, hərə özünə bir qəzet uydurur və hamıya vəsiqə paylayır. Sərhədlər müəyyənləşməlidir".

Deputat Ceyhun Məmmədov isə bildirib ki, dövlət başçısının imzaladığı qanun mütərəqqi əhəmiyyət kəsb edir: "Ölkəmizdə, eləcə də dünyada baş verən son hadisələr hər bir dövlətin media siyasətinə yenidən baxmasını labüd edir. Proseslərin təhlili həm də dövlət idarəçiliyində medianın idarə olunmasının xüsusi əhəmiyyət daşıdığını göstərir. Dünyanın inkişaf etmiş əksər ölkələrində media idarə olunur. Burada idarə dedikdə yalnız mediaya nəzarət nəzərdə tutulmur. Düzgün media siyasətinin həyata keçirilməsi, cəmiyyətin dövlət siyasəti barədə davamlı məlumatlandırılması, dövlət tərəfindən qəbul edilən qərarların əhəmiyyəti barədə sistemli və ardıcıl təbliğatın aparılması, dövlət təhlükəsizliyinin təmin edilməsi kimi mühüm komponentlər də buraya daxildir".

Siyasi ekspert, jurnalist Elçin Mirzəbəylinin sözlərinə görə, 1999-cu ildə qəbul edilən "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanuna sonradan çoxsaylı əlavə və dəyişikliklərin edilməsinə baxmayaraq, sözügedən hüquqi-normativ akt informasiya və kommunikasiya sektorundakı müasir çağırışlara, yeni dövrün media anlayışına cavab vermirdi: "Bu baxımdan da medianı əhatə edə biləcək hüquqi tənzimləmə mexanizmlərinin yer aldığı Media haqqında Qanunun qəbul edilməsi mütərəqqi addımdır. Qanun, əslində, media sektorunda həyata keçirilən islahatların hüquqi konstruksiyasıdır. Bu, olmadan islahatların bütün komponentlərini həyata keçirmək mümkün olmazdı. Yeni qanun möcüzə yaratmayacaq, illərdən bəri yığılıb qalmış problemləri bir göz qırpımında həll etməyəcək, amma həll mexanizmlərini ortaya qoyacaq ki, bu da prosesin içərisində yer alan və ölkə mediasını ən azı öz çalışdığı, rəhbərlik etdiyi hüquqi subyekt çərçivəsində inkişaf etdirməyi arzulayan şəxslərin ideyalarını gerçəkləşdirmələri və layiq olduqları yeri tutmaları üçün yetərlidir".

Həmkarlarımız hesab edirlər ki, qanun peşəkar media ilə yaxalarına "qızıl qələmlər" taxaraq,"press" adına iddia edən, əslində isə söz və fikir azadlığından, jurnalistikadan özlərinin qanunsuz əməlləri üçün istifadə etməyə çalışanlar arasındakı "qırmızı xətt"i müəyyənləşdirəcək və sonuncuların qol-qanad açmamaları üçün hüquqi məhdudiyyətlər yaradacaq, gerçək və məsuliyyətli söz və ifadə azadlığının keşiyində dayanacaq.

Ölkəmizdə media fəaliyyətinə hüquqi status verilməsi, necə deyərlər, bu sahədə qayda yaradılması məqsədilə illərdir ki, müvafiq addımlar atılır. Prezidentin "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşməsi haqqında" 12 yanvar 2021-ci il tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxsin yaradılması həmin məqsədə xidmət edib. Digər sahələrdə aparılan genişmiqyaslı dərin islahatların davamı olaraq atılan bu addım demokratik dövlət və azad media münasibətlərini yeni yüksək səviyyəyə qaldırmışdır. Zamanın çağırışları informasiya məkanında da özünün zəruri əksini tapır.

"Media haqqında Azərbaycan Respublikasının Qanunu" media fəaliyyətinin kütləvi informasiya, media subyekti və jurnalist, audiovizual, çap, onlayn media və informasiya agentliyi, redaksiya və məsul redaktor, istifadəçi və media savadlılığı, loqotip, yayım, yayımçı, operator və proqram kimi əsas anlayışlarına hüquqi aydınlıq gətirilir. Media qanunvericiliyi və onun tətbiq dairələri, bu sahədə dövlətin vəzifələri sənəddə öz əksini tapıb. Qanunun 5-ci maddəsində göstərilir: "Azərbaycan Respublikasında media azaddır. Media sahəsində dövlət senzurası, habelə bu məqsədlə dövlət orqanlarının (qurumlarının) və ya vəzifələrin yaradılması və maliyyələşdirilməsi qadağandır". Bu, o deməkdir ki, mətbuat sahəsində azad fəaliyyət və hüquqi məsuliyyət bir daha təsbit edilmiş olur. Jurnalistika sahəsində fəaliyyət sərbəst yaradıcılıq əsasında həyata keçirilir. Media təmsilçiləri, həmçinin öz mənafelərini təmsil edən təşkilatlarda birləşmək, peşə borclarını yerinə yetirərkən şəxsi toxunulmazlıq, şərəf və ləyaqətlərini müdafiə etmək hüquqlarına malikdirlər. Onların peşəkar fəaliyyətinə qanunsuz müdaxilə etmək yolverilməzdir. Hərbi və fövqəladə vəziyyət dövründə və digər xüsusi hallarda mətbu orqanların və jurnalistlərin fəaliyyəti də qanunda hüquqi ifadəsini tapmışdır.

Qanunda bildirilir ki, media subyektləri və jurnalistlər cəmiyyətdəki ictimai, siyasi, sosial və iqtisadi vəziyyət haqqında, dövlət orqanlarının (qurumlarının), bələdiyyələrin, müəssisə və təşkilatların, qeyri-hökumət təşkilatlarının, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti barədə düzgün informasiya almaq hüququna malikdirlər. Müəyyən edilmiş üstünlüklər sırasında dövlət orqanlarının mediaya rəsmi və sosial reklamlar sifarişi, dövlət və cəmiyyət üçün faydalı layihələrdə iştirak etmək, maliyyə xarakterli güzəşt və imtiyazlardan (güzəştli kreditlərdən yararlanmaq daxil olmaqla) istifadə, sosial müdafiə və maddi təminatın yaxşılaşdırılması ilə bağlı güzəştlərdən yararlanma kimi məsələlər sahənin inkişafı və fəaliyyətin stimullaşdırılması baxımından önəmlidir.

Bir sözlə,"Media haqqında Azərbaycan Respublikasının Qanunu" ölkədə əsl demokratik, azad medianın tərəqqisi ilə bağlı dövlətin siyasi iradəsini təcəssüm etdirir. Bu, milli mətbuatın daha geniş pərvərişi üçün yeni imkanlar yaradır.

**_Əli NƏCƏFXANLI, "Xalq qəzeti"_**